MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

# MİNGƏÇEVİR DÖVLƏT UNİVERSİTETİ

## RÜŞVƏT VƏ KORRUPSİYA İLƏ MÜBARİZƏ SİYASƏTİ

Rüşvət və korrupsiya ilə mübarizə siyasəti Mingəçevir Dövlət Universitetində şəffaf və etik idarəetmə mədəniyyətinin təşviqi məqsədilə hazırlanmışdır. Siyasət universitetin rəhbər şəxsləri, akademik və inzibati heyəti və tələbələri üçün davranış standartlarını müəyyənləşdirir və bu sahədə ədalətlilik prinsipinin tətbiqini təmin edir. Məqsəd rüşvət və korrupsiya risklərini minimuma endirmək, ədalətli və şəffaf qərarların qəbuluna şərait yaratmaq və etimad mühitini gücləndirməkdir.

Mingəçevir Dövlət Universiteti rüşvət və korrupsiya ilə mübarizə sahəsində aşağıdakı əsas prinsiplərə sadiq qalaraq fəaliyyət göstərir:

| **Prinsip** | **Təsvir** |
| --- | --- |
| **Şəffaflıq** | Bütün inzibati və akademik qərarlar, proseslər və prosedurlar aydın və başa düşülən şəkildə sənədləşdirilməli, müvafiq maraqlı tərəflərlə paylaşılmalı və əlçatan olmalıdır. Şəffaflıq korrupsiya risklərinin qarşısının alınmasında mühüm rol oynayır. |
| **Hesabatlılıq** | Universitetin bütün struktur bölmə və şöbələri öz fəaliyyətinə görə cavabdehdir. Qərarların əsaslandırılması və nəticələrinin qiymətləndirilməsi təmin edilməli, qanunvericilik və daxili sənədlər çərçivəsində hesabatlılıq mədəniyyəti formalaşdırılmalıdır. |
| **Etik davranış** | Universitetin akademik, inzibati heyəti və tələbələri öz vəzifə və öhdəliklərini yerinə yetirərkən vicdanlı, obyektiv və dürüst davranmalıdırlar. Etik davranış universitetin akademik və sosial mühitinin əsasını təşkil edir. Bu prinsipə əsaslanaraq Mingəçevir Dövlət Universitetinin Elmi Şurasının 29 aprel 2024-cü il tarixli iclasının 52 nömrəli qərarı ilə "Müəllimlərin etik davranış qaydaları" sənədi təsdiq |

| | |
|---|---|
| | edilmişdir. |
| **Bərabərlik və ədalətlilik** | Bütün qərar və proseslərdə ayrı-seçkiliyə yol verilmədən, hər kəsə bərabər yanaşma təmin edilməlidir. Qiymətləndirmə, işə qəbul, vəzifəyə təyinat və digər sahələrdə ədalətli münasibət əsas prinsipdir. Mingəçevir Dövlət Universitetinin bərabərlik və ədalətlilik prinsipinə əsaslanan 10. Dayanıqlı İnkişaf Məqsədi-Bərabərsizliyin azaldılması hesabatı mövcuddur. |
| **Qoruma və məxfilik** | Rüşvət və korrupsiya ilə bağlı məlumat verən şəxslərin anonimliyi və təhlükəsizliyi qorunmalıdır. Şikayət verənlərə qarşı hər hansı təzyiq və ya qisas alma cəhdləri yolverilməzdir. Universitet bu şəxslərin hüquqlarını müdafiə etməyi öhdəsinə götürür. |

Mingəçevir Dövlət Universitetində aşağıdakı fəaliyyətlər və davranışlar qəti şəkildə qadağandır və aşkarlanacağı təqdirdə hüquqi və intizam məsuliyyəti yaradır:

| **Təsvir** | **Fəaliyyət** |
|---|---|
| Vəzifə, qiymət və ya qərar əldə etmək məqsədilə hər hansı şəxsə pul, hədiyyə, xidmət və ya digər faydaların verilməsi və ya alınması | ***Rüşvətin alınması və verilməsi*** |
| Tələbənin imtahan, diplom işi və ya başqa akademik göstəricilərinin rüşvət və ya şəxsi maraq müqabilində dəyişdirilməsi və ya saxtalaşdırılması. | ***Qiymətlərin qeyri-qanuni yolla dəyişdirilməsi*** |
| Ödənişli əsaslarla təhsil alan tələbələrin təhsil haqqı və digər rəsmi ödənişlər istisna olmaqla, əlavə pul vəsaiti və ya hədiyyə tələb olunması | ***Qeyri-rəsmi ödənişlərin tələb olunması*** |
| Korrupsiya ilə mübarizə mexanizmlərindən sui-istifadə edərək, əsassız şikayətlər edilməsi və ya böhtan xarakterli məlumatların yayılması | ***Əsassız şikayət edilməsi və böhtan atılması*** |
| Rüşvət və korrupsiya halları barədə məlumat verən şəxslərə qarşı qisas alma, təzyiq və ya diskriminasiya edilməsi | ***Şikayət edən şəxslərə qarşı qisas*** |

## *Risklərin qarşısının alınması tədbirləri*

Mingəçevir Dövlət Universiteti rüşvət və korrupsiya hallarının qarşısını almaq üçün sistemli və qabaqlayıcı tədbirlər həyata keçirir. Bu tədbirlər universitetin idarəetmə, təhsil və inzibati proseslərində şəffaflığı və obyektivliyi təmin etməyə yönəlib:

**Daxili nəzarət mexanizmlərinin gücləndirilməsi**

- Mingəçevir Dövlət Universitetinin struktur bölmə və şöbələrində fəaliyyətlərin icrası zamanı riskləri aşkar etmək və vaxtında müdaxilə etmək məqsədilə effektiv daxili nəzarət sistemləri tətbiq olunur. Maliyyə əməliyyatları, sənəd dövriyyəsi, qərar qəbuletmə prosesləri üzrə monitorinq və hesabatlılıq təmin edilmişdir.

**Qiymətləndirmə və imtahanların keçirilməsində obyektivlik**

- Tələbələrin bilik və bacarıqlarının qiymətləndirilməsi zamanı şəffaf və ədalətli prosedurlar tətbiq edilir. İmtahanların təşkili və yoxlanması müvafiq əmrdə təyin olunmuş imtahan qərargahı işçilərinin nəzarətində saxlanılır, nəticələrin əsassız şəkildə dəyişdirilməsinin qarşısı alınır.

**Müntəzəm təlimlər və maarifləndirmə tədbirləri**

- Müntəzəm təlimlər və maarifləndirmə tədbirləri - Rüşvət və korrupsiya riskləri barədə universitet əməkdaşları və tələbələri üçün davamlı maarifləndirmə və etik davranış üzrə təlimlər keçirilir. Bu tədbirlər vasitəsilə korrupsiyaya qarşı universitet daxilində dayanıqlı mədəniyyətin formalaşması hədəflənir.

## *Cəza tədbirləri*

Rüşvət və korrupsiya halları Mingəçevir Dövlət Universitetində ciddi qayda pozuntusu hesab olunur və belə hallara yol verən şəxslər müvafiq sanksiyalarla üzləşə bilərlər;

- Rəsmi xəbərdarlıq və töhmət verilməsi
- Müəyyən müddət üçün vəzifədən uzaqlaşdırma
- Vəzifədən azad etmə və ya əmək münasibətlərinə xitam verilməsi